# ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ İNSAN İNKİŞAFININ MÜHÜM ŞƏRTİ KİMİ

*Nəsibova Arifə Carı qızı*
*Adıgözəlova Lalə Xələddin qızı*
*Mingəçevir Dövlət Universiteti*

Ərzaq təhlükəsizliyi bütün insanların yaşamaq üçün zəruri olan ərzaq məhsullarına iqtisadi çıxışının təmin olunması deməkdir. Başqa sözlə, ərzaq təhlükəsizliyi sağlamlığın və fəal həyat təminatının qorunub saxlanması, cəmiyyətin inkişafının əsasıdır. Həyat təminatı yaşayışın və gələcək rifahın təmin olunması üçün zəruri imkanları, resursları (maddi və sosial) və fəaliyyəti özündə birləşdirir. Bu baxımdan ərzaq təhlükəsizliyi həyat keyfiyyəti və cəmiyyətin sağlam inkişafında ən əhəmiyyətli yerlərdən birini tutur.

Son illərdə bütün dünya ölkələrində, o cümlədən BMT, Dünya Bankı, BVF kimi təşkilatlar tərəfindən ərzaq təhlükəsizliyinin təmin edilməsi, əhalinin baş verə biləcək həyat risklərindən qorunması istiqamətində ciddi tədbirlər həyata keçirilsə də, müasir dünya qarşısında qlobal problem olaraq qalır. Çünki ərzaq təhlükəsizliyi birbaşa ölkə vətəndaşlarının sağlamlığı və yaşama vasitəsi, milli və iqtisadi varlığı ilə bağlı olan problemlərdəndir. Ona görə də inkişaf səviyyəsindən asılı olmayaraq bütün ölkələr ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində bu və ya digər dərəcədə tədbirlər həyata keçirirlər. Lakin ərzaq təhlükəsizliyi strategiyası hər bir ölkənin inkişaf səviyyəsindən asılı olaraq dəyişir. Son illərdə Azərbaycanda da bu istiqamətdə tədbirlər həyata keçirilir. Xüsusilə elm və texnologiyaların sürətlə inkişaf etdiyi indiki şəraitdə problemin daha ciddi xarakter alması müşahidə edilir. Bu, ərzaq məhsullarının ekoloji təmizliyinin qənaətbəxş olmaması (müasir texnika və avadanlıqların, maşınların ətraf mühitə vurduğu zərər) və kimyəvi cəhətdən insan orqanizmi üçün təhlükəli olan məhsulların istehsalı, gələcəkdə baş verə biləcək ərzaq qıtlığı ilə əlaqələndirilə bilər.

Fikrimcə, ərzaq təhlükəsizliyi strategiyası ölkələrin sosial-iqtisadi inkişafından asılı olaraq üç səviyyədə həyata keçirilir.

Birincisi, ərzaq təminatı strategiyası. İnsanların zəruri ərzaq məhsullarına olan tələbatının ödənilməsinə yönələn bu strategiya əsasən iqtisadi cəhətdən zəif inkişaf edən və yaxud da keçid iqtisadiyyatlı yoxsul ölkələrdə həyata keçirilir. Belə ölkələrdə daha çox kəmiyyətə diqqət yetirilir və insanların zəruri ərzaq məhsullarına olan tələbatının ödənilməsinə çalışırlar. Ona görə də yoxsul ölkələrdə bazara daxil olan ərzaq məhsullarının keyfiyyət aspekti bir növ ikinci plana keçir. Buna səbəb yoxsul ölkələrdə əhalinin alıcılıq qabiliyyətinin aşağı olmasıdır. Bu səbəbdən onların ərzaq bazarına ucuz və aşağı keyfiyyətli məhsullar daxil olur. Bu da son nəticədə insanların sağlamlığına mənfi təsir göstərir. Məlum olduğu kimi dünyada 2 milyarddan çox insan aclıqdan əziyyət çəkərək, müxtəlif yolxucu xəstəliklərə düçar olurlar. Buna əsas səbəb insanların yoxsulluq və ərzaq çatışmazlığı səbəbindən normal qidalana bilməməsi, orqanizmin zəifləyərək yolxucu xəstəliklərə qarşı immunitetinin zəifləməsidir. .

İkinci, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi strategiyası. Bu zaman bazara daxil olan ərzağın keyfiyyəti birinci sırada durur. Bu strategiya inkişaf etməkdə olan ölkələr üçün xarakterikdir. Çünki inkişaf etməkdə olan ölkələr sosial-iqtisadi inkişaf səviyyəsi yüksəldikcə, bu məsələyə xüsusi diqqət yetirməyə başlayırlar. İndiki şəraitdə inkişaf etməkdə olan ölkələrlə müqayisədə inkişaf etmiş ölkələrin ərzaq təminatı ilə bağlı problemi hələ ki, yoxdur. Ona görə də inkişaf etmiş ölkələrdə qida məhsullarının keyfiyyətinin yüksəldilməsinə, ekoloji cəhətdən təmiz olmasına xüsusi diqqət yetirilir və bu məqsədlə elmi tədqiqat işlərinə milyardlarla dollar vəsait xərclənir.

Üçüncüsü, insanların ekoloji cəhətdən təmiz və yüksək keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi strategiyası. Bu, daha çox inkişaf etmiş ölkələr üçün xarakterikdir. Bu strategiya artıq ərzaq əldə etmək imkanlarının yaxşılaşdırılması ilə kifayətlənmir və bütün ailə və ev təsərrüfatı üzvlərinin sağlam və aktiv həyat tərzi qurmaları üçün tələbata uyğun, kifayət qədər və keyfiyyətli ərzaq məhsulları alınmasında mövcud olan imkanlar nəzərdə tutulur. Əgər Azərbaycan müstəqilliyin ilk illərində keyfiyyətə deyil, kəmiyyətə və qiymətə üstünlük verirdisə, hazırda keyfiyyət tərəfi üstünlük təşkil edir. Əhalinin gəlirlərinin artması, həyat səviyyəsinin əvvəlki illərlə müqayisədə yüksəlməsi artıq insanların keyfiyyətli ərzaq məhsullarına tələbatını artırmışdır. Deməli, ərzaq təhlükəsizliyinin ikinci mərhələsində olan Azərbaycan indi elmin inkişafına, yeyinti sənayesində və kənd təsərrüfatında elmi biliklərdən istifadəyə, yeni texnologiyaların mənimsənilməsinə və istifadəsinə xüsusi diqqət yetirməlidir. Bunun üçün də bu sahədə elmi tədqiqat işlərinin aparılmasına, ölkəyə daxil olan ərzaq məhsullarının keyfiyyətinə nəzarətin artırmasına ehtiyac vardır. Qeyd olunan problemlər ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri edir.

Birincisi, insanın yaşaması üçün ən zəruri ərzaq məhsullarının ölkə daxilində istehsalına, həmin məhsulların ehtiyat fondlarının yaradılmasına nail olmaq;

İkincisi, ərzaq bazarında texniki, texnoloji, ekoloji və sanitar qaydalara cavab verməyən aşağı keyfiyyətli və insan orqanizmi üçün təhlükəli olan ərzaq məhsullarının istehsalının və ölkəyə gətirilməsinin qarşısını almaq;

Lakin etiraf edək ki, hazırda Azərbaycanda bu sahədə problemlər hələ də qalmaqdadır və bu problemin həllində vətəndaş məsuliyyəti də vacibdir. Ərzaq məhsullarının istehsalı, emalı və satışı sanitariya - gigiyenik tələblərə cavab vermir. Çox vaxt insanlar sanitariya - gigiyenik tələblərə cavab verməyən yerlərdə ərzaq məhsullarının emalını, saxlanılmasını, satışını həyata keçirirlər. Bu da son nəticədə insanların sağlamlığına mənfi təsir göstərir. Ərzağın mövcudluğu ölkədə kəmiyyət və keyfiyyətcə kifayət qədər və təhlükəsiz ərzaq məhsullarının mövcud olmasını səciyyələndirir. Mövcudluq adətən milli səviyyədə qiymətləndirilir və ərzaq ehtiyatlarının səviyyəsindən asılı olur. Ərzaq məhsulların milli səviyyədə mövcudluğu məhsulların istehsalı, bölgüsü, satışı və saxlanmasına dair iqtisadi siyasət və qanunvericiliklə xarakterizə edilir.

Araşdırmalar göstərir ki, bazar münasibətləri şəraitində ərzaq bazarının formalaşdırılması və məhsulun keyfiyyətinin yüksəldilməsinin mühüm cəhətlərindən biri də məhsulun keyfiyyətinin idarə olunması sisteminin təkmilləşdirilməsidir.

Çünki məhsul istehsalının idarə olunmasının mühüm ünsürü olan keyfiyyətin idarə olunması istehsalın iqtisadi göstəricilərinin artımını əks etdirir. Bununla yanaşı, keyfiyyətin idarə olunması təsərrüfatçılıq metodu olmaqla yanaşı ondan səmərəli istifadə edilməsi böyük iqtisadi əhəmiyyət kəsb edir. Ərzaq təhlükəsizliyinin təmin edilməsində (burada söhbət keyfiyyətli ərzaq məhsulları ilə təminatdan gedir) sahibkarların, elmi tədqiqat müəssislərinin, dövlət nəzarəti orqanlarının üzərinə böyük məsuliyyət düşür. Bu məsuliyyət onlarda ilk növbədə vətəndaş məsuliyyəti, dövlətə və milli dəyərlərə hörmət olmaqla, yüksək intellektual səviyyə kimi keyfiyyətin olmasını tələb edir. Hər bir insan ərzaq hüququna malikdir. Bu hüquq beynəlxalq hüquqi sənədlərdə tanınıb və aclıqdan qurtulmaq hüququnu nəzərdə tutur. Kifayət qədər ərzaq almaq hüququnun əsas aspektləri aşağıdakı mənanı verir:

– İnsanların qida tələbatının təmin olunması üçün kifayət edən miqdarda və keyfiyyətdə, zərərli maddələrdən azad və konkret mədəniyyət şərtləri üçün məqbul ərzağın mövcudluğu;

– Belə ərzaqdan digər insanların öz hüquqlarını həyata keçirməsinə mane olmayan şəkildə daimi istifadəsinin mümkünlüyü.

Məlum olduğu kimi ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatı elmləri, kimya elmi və onun alt sahələri, tibb elmi, texnika elmləri və s. bu kimi elm sahələrinin üzərinə daha böyük vəzifələr düşür. Qeyd edək ki, sahibkar, dövlət xidmətində çalışanlar, ümumilikdə isə bütün əhali ərzaq təhlükəsizliyinin məsuliyyətini dərk etməli və bu istiqamətdə hər kəs öz üzərinə düşən vəzifəni yerinə yetirməlidir. Çünki məhsulun keyfiyyətinə nəzarəti həm də istehlakçılar etməli, belə hallar aşkar etdikdə müvafiq orqanlara məlumat verməlidirlər. Burada cəmiyyətin intellektual səviyyəsinin yüksək olması, öz hüquq və azadlıqlarını qoruya bilməsi heç də az əhəmiyyət kəsb etmir. Aqrar sahədə məhsul keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş tədbirlər sistemi bir tərəfdən bölmələrarası münasibətləri tənzimləməli, digər tərəfdən isə, yeni təsərrüfatçılıq qurumlarını dəstəkləməlidir. Aqrar sahədə ərzaq məhsullarının istehsalı genişləndikcə bu məsələnin əhəmiyyəti nəinki azalmır, hətta ölkəmizin geosiyasi durumu və dünyada ərzaq qıtlığının güclənməsi ilə əlaqədar olaraq, onun əhəmiyyəti daha da artır.

Fikrimizcə, həyata keçirilən tədbirlərin mühüm istiqamətlərindən biri də, ETT-nin nailiyyətlərindən, məhsul istehsalının səmərəli təşkili üçün zəruri olan maddi-texniki resurslardan daha da səmərəli istifadə edilməsindən ibarət olmalıdır. Ərazi və bölmələr üzrə məhsul istehsalının geniş miqyaslı olması, ayrı-ayrı ərazilər üzrə təbii-iqtisadi şəraitin müxtəlifliyi, şəhərlə kənd arasında məsafənin uzaqlığı nəzərə alınaraq, məhsulların daşınması ilə əlaqədar olan mövsümi xərclərin azaldılmasına, yerli məhsul istehsalçılarının gəlirlərinin artırılmasına, əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsinə səmərəli ərzaq bazarının formalaşdırılmasında məhsul keyfiyyətinin yüksəldilməsinə təsir edən amillərin məcmusu kimi baxmaq olar.

Əəbiyyat:

1. Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2 mart 2001-ci ildə təsdiq edilmişdir.

2. Hacızadə E.M. Dünya iqtisadiyyatı və Azərbaycan. Dərslik. Bakı: Letterpress nəşriyyat evi, 2018.
3. Business times. 2020. №19 (678).
4. Azərbaycanin ərzaq təhlükəsizliyi. URL: https://www.elibrary.az/docs/jurnal/jrn2017_320.pdf
5. Ərzaq təhlükəsizliyi məsələləri. URL: https://aesma.edu.az/assets/files/%C6%8FSMA%202022%20%E2%84%96%202%20(18)%20152-159.pdf

## İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZILARDƏ BƏRPA OLUNAN ENERJI MƏNBƏLƏRINƏ INVESTISIYA QOYULUŞLARI

*Xəlilov Zaur Ağahüseyn oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Bərpa olunan enerji mənbələrinin inkişafı Azərbaycanın işğaldan azad olunmuş ərazilərində iqtisadi bərpa və dayanıqlı inkişafın təmin edilməsi baxımından mühim əhəmiyyət kəsb edir. Bu bölgələrdə enerji istehsalında istifadə olunan alternativ mənbələr ekoloji mühitin qorunması və iqtisadiyyatın diversifikasiyası üçün yeni imkanlar yaradır. Eyni zamanda, bərpa olunan enerji sektoru ölkənin enerji təhlükəsizliyini artırmaqla yanaşı, xarici investorlar üçün də cəlbedici bir mühit formalaşdırır.

İşğaldan azad olunmuş ərazilərin enerji potensialı böyükdür. Bu bölgələrdə günəş və külək enerjisinin istifadəsi müasir texnologiyaların tətbiqi ilə mümkün hala gəlmişdir. Xüsusilə, günəş enerjisi Azərbaycanın coğrafi mövqeyi və iqlim şəraiti ilə uyğunlaşaraq, geniş istifadəyə yararlı bir mənbədir. Eyni zamanda, külək enerjisi sahəsində də irəliləyişlər əldə etmək mümkündür. Bu enerji formalarının inkişafı yalnız iqtisadi fayda yaratmaqla qalmayıb, eyni zamanda ətraf mühitin mühafizəsinə də müsbət təsir göstərəcəkdir.

Bərpa olunan enerji sahəsinə investisiya qoyuluşları yeni iş yerlərinin yaradılması, yerli istehsalın artması və iqtisadi aktivliyin yüksəlməsi ilə nəticələnir. Xarici investorların cəlb edilməsi üçün dövlət tərəfindən həyata keçirilən dəstəkləyici siyasət sərmayə mühitinin yaxşılaşdırılması, qanunvericilik bazasının gücləndirilməsi - bütün bunlar investisiya mühitini daha da cazibədar edir. Bu sahədə yerli və beynəlxalq əməkdaşlıq, müasir texnologiyaların tətbiqi və yenilikçi yanaşmalar investisiya axınını artırmaq üçün mühimdir.

Bununla yanaşı, enerji istehsalında bərpa olunan mənbələrin istifadəsi Azərbaycanın qlobal iqlim öhdəliklərinə uyğun şəkildə inkişaf etməsinə dəstək verir. İqlim dəyişikliyi ilə mübarizə karbon emissiyalarının azaldılması, dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, bütün bunlar bərpa olunan enerji layihələrinin strateji məqsədlərindəndir. İstifadə olunan resursların səmərəli idarə edilməsi, ekosistemlərin mühafizəsi və sosial inkişafın təmin edilməsi bu layihələrin uğurlu icrası üçün vacibdir.

İşğaldan azad olunmuş ərazilərdə bərpa olunan enerji sektorunun inkişaf etdirilməsi yalnız iqtisadi artımın təmin edilməsinə deyil, həm də sosial və ekoloji